Azad Azərbaycan

03 dekabr 2020-ci il №105 (3648)



*Bilman İsaq - 60*

# Qələm dostumuzun 60 yaşı tamam oldu



**Eşidəndə ki Bilman Allahverdiyevin 60 yaşı tamam olur, düzü inanmadım. Yaşından cavan görsənən qələm dostumuz haqqında ürək sözlərimi yazaraq Yubilyarı təbrik etmək qərarına gəldim.**

Bilman İsaq oğlu Allahverdiyev 1960-cı ilin dekabr ayının 2-də Naxçıvanın Şərur rayonunun Tənənəm kəndində ziyalı ailəsində anadan olub. Atası İsaq kişi el-obada hörmətli nüfuzlu, dürüst, çörəkli kişilərdən olub. Onu hamı İsa deyə çağırarmış. Çünki Sovetlər birliyində İsaq kişinin doğum vərəqəsində rus meyilli qeydiyyatçı onu İsa kimi yazsa da, əsl adını Bilman öz təxəllüsündə bu gün də yaşadır.

Bilmangil 3 bacı, 7 qardaşdır. Onun uşaqlıq arzusu rəssam olmaq olub. Ə.Əzimzadə adına Rəssamlıq məktəbini bitirib. Musiqiyə və mətbuata böyük marağı olub. Qəzetçiliyə, jurnalistikaya marağı onu 1995-ci ildə mətbuata gətirib.

**İlk olaraq Mətbuat Yayımı ilə işə başlayan Bilman İsaq bir çox qəzetlərdə, o cümlədən "7 gün", "525", "Şərh", "Kriminal", "Naxçıvan", "168" və digər qəzetlərdə çalışıb. Ömrünü "Azad Azərbaycan" qəzetinə bağlayıb.**

Onu da qeyd edim ki, Bilman İsaq Qarabağ müharibəsi veteranıdır. Ailələrində üç Qarabağ qazisi, bir Qarabağ müharibəsi əlili var.

Qəhrəman ana olan Səriyyə xanım övladları ilə fəxr edir və bu gün də qürur duyur. Çoxuşaqlı övladları tez-tez ata yurdunu ziyarət edir, anasının başına yığışıb köhnə xatirələrə, uşaqlıq illərinə qayıdırlar.

Onu da qeyd edim ki, Bilman İsaq dörd qız, bir oğul atasıdır. Son beşik övladı 18 yaşlı evin tək oğlu Abbasəli də hərbi xidmətə hazırlaşır.

**Bilman İsaq üçün bu günlər ikiqat bayramdır. Qarabağ və ətraf rayonlarımızın işğaldan azad olunduğu ərəfədə 60 yaşı tamam olmuş qələm dostumuzu təbrik edir, yeni-yeni uğurlar arzulayırıq.**

**Rauf İlyasoğlu**